

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 163 (23.575)

26 sentyabr 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.

Avropa İttifaqının xüsusi nümayəndəsini salamlayan Prezident İlham Əliyev iyulun 12-də Ermənistanın növbəti hərbi təxribatlarının daha təcavüzkar formada olmasından, nəticələrindən bəhs edib.

Dövlətimizin başçısı deyib ki, iyulda hücumların məqsədi, əsasən, Azərbaycanın yeni ərazilərini işğal etmək və sonra danışıqlar masasında daha güclü mövqeyə malik olmaq idi. Qeyd edilib ki, onlar məğlub olduqdan dərhal sonra yardım üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət ediblər.

Prezident İlham Əliyev bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü diqqətə çatdıraraq bildirib ki, işğalçı ölkə iyul təxribatlarından sonra da müharibəyə hazırlaşır, Minsk qrupunun həmsədrləri onları dayandırmır. Dövlətimizin başçısı Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istədiyini vurğulayıb.

Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaar Avropa İttifaqının Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və sülhün olmasına çalışdığını, özünün isə vəziyyətin necə olduğunu öyrənmək üçün gəldiyini deyib.

## Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı üçün yeni kompleks inşa olunur





Ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi vəzifələr bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında da hərbi hissələrin maddi-texniki təminatı xeyli möhkəmləndirilmişdir. Aparılan quruculuq işləri zamanı şəxsi heyətin sağlamlığı da diqqətdə saxlanılır, müasir xəstəxanalar və tibb məntəqələri istifadəyə verilir.

Sentyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının yeni kompleksinin inşası ilə maraqlanmışdır.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Bildirilmişdir ki, hospital 20 min 450 kvadratmetr ərazini əhatə edir. Zirzəmi ilə birlikdə 5 mərtəbədən, 250 otaqdan ibarət olacaq 280 çarpayılıq hospitalda əsas tikinti işləri başa çatdırılmış, bütün mərtəbələrdə kommunikasiya xətlərinin çəkilişi aparılmış, havalandırma sistemi və 4 lift quraşdırılmışdır. Hazırda binada son tamamlama işləri aparılır.

Hospitalda radiologiya, tibbi ekspertiza, fizioterapiya, travmatologiya, anesteziologiya, reanimasiya, poliklinika, intensiv terapiya, qəbul, əməliyyat, kardiologiya, cərrahiyyə, urologiya, psixonevrologiya, LOR və üz-çənə cərrahiyyəsi, laboratoriya və digər bölmələr fəaliyyət göstərəcəkdir. Hərbi qulluqçuların tibbi müayinə və müalicəsinin keyfiyyətlə aparılması üçün hospital ən müasir tibbi avadanlıqlarla təchiz ediləcəkdir.

Hospitalda müalicə alacaq xəstələr üçün həyətdə istirahət guşəsi istifadəyə veriləcəkdir. Tikintisi aparılan yardımçı binada tibbi tullantıların yandırılması, oksigen, generator otaqları, qaraj və bufet yerləşəcəkdir.

Ali Məclisin Sədri hospitalda ilin sonuna qədər işlərin başa çatdırılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Məzunlara "Qızıl" və "Gümüş" nişanlar təqdim edilib



*Ötən tədris ilində məktəbi xüsusi nailiyyətlərlə başa vuraraq "Qızıl" və "Gümüş" nişanlara layiq görülən məzunlara nişanlar təqdim olunub.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov bildirib ki, ötən tədris ilində muxtar respublika məktəbliləri bir sıra müxtəlif müsabiqə və bilik yarışlarında, eləcə də fənn olimpiadalarında iştirak edərək uğurlu nəticələr əldə edib, respublika fənn olimpiadalarında iştirak edən məktəblilərdən 4-ü I, 7-si II, 13-ü isə III yer olmaqla, ümumilikdə, 24-ü medala layiq görülüb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2019-2020-ci tədris ili də uğurlu olub, məzunlardan 275-i 500-700 arası bal toplayıb, onlardan 145-i, yaxud 53 faizi muxtar respublikanın ali təhsil müəssisələrinə qəbul olub.

Vurğulanıb ki, mövcud qaydalara əsasən ümumtəhsil məktəblərində təhsil aldığı müddətdə nümunəvi davranışı ilə yanaşı, təhsili xüsusi nailiyyətlərlə başa vuran şagirdlər "Qızıl" və ya "Gümüş" nişanlarla təltif olunur, onların adı oxuduqları məktəbin "Şərəf kitabı"na yazılır. Bu il də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunlardan 17-si "Qızıl", 17-si "Gümüş" nişana, 34-ü isə fərqlənmə attestatına layiq görülüb.

Təhsil naziri qeyd edib ki, ölkə üzrə "Qızıl" nişan alanların 14 faizi, "Gümüş" nişan alanların isə 22 faizi muxtar respublika ümumtəhsil müəssisələrinin məzunları olub. Həmin məzunlar onlara göstərilən etimadı doğruldub, ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında "Qızıl" nişana layiq görülən məzunların hamısı 600-dən yuxarı, "Gümüş" nişana layiq görülən məzunlar isə 500-700 arası bal toplayıblar. Həmin məzunlar tədris müddəti keçirilmiş fənn olimpiadalarında da yüksək nəticələr əldə edib. "Qızıl" nişana layiq görülən şagirdlərdən 5-i, "Gümüş" nişana layiq görülənlərdən isə 2-si respublika fənn olimpiadasının qalibi olublar.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov çıxışında qeyd edib ki, ötən tədris ilində Naxçıvan şəhər ümumtəhsil məktəblərini 584 məzun bitirib, onların 504-ü ali məktəblərə, 60 nəfəri isə orta ixtisas təhsili müəssisələrinə qəbul üçün sənəd verib. Məzunlardan 68-i 500-700 intervalında bal toplayıb, 2-si respublika fənn olimpiadasının qalibi olub, 4 nəfər "Qızıl", 4-ü isə "Gümüş" nişan, 11 nəfər isə tam orta təhsil haqqında fərqlənmə attestatına layiq görülüb.

Təqdimat mərasimində Ordubad rayon Nüsnüs kənd tam orta məktəbinin məzunu, qəbul imtahanlarında 672 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Tibb ixtisasına qəbul olan, "Qızıl" nişana layiq görülən Nəriman Həsənov çıxış edərək ümumtəhsil məktəblərini xüsusi nailiyyətlərlə başa vuraraq nişanlarla təltif olunan məzunların yüksək uğurlar qazanmalarında muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının və yaradılan müasir təhsil infrastrukturunun böyük rol oynadığını qeyd edib və yaradılan şəraitə görə məzunlar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra ümumtəhsil məktəblərini xüsusi nailiyyətlərlə bitirən məzunlara nişanlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Musiqi təhsili müəssisələrinə işə qəbul üçün müsahibə keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üçün 15 iyul 2020-ci il tarixdə elan olunmuş müsabiqənin müsahibə mərhələsi 24-25 sentyabr tarixlərdə Naxçıvan Musiqi Kollecində keçirilib. Məlumat üçün bildirək ki, müsabiqəyə çıxarılmış 193 vakant vəzifənin tutulması üçün 125 nəfər sənəd təqdim edib. 17-19 sentyabr 2020-ci il tarixlərdə keçirilmiş test imtahanlarında iştirak edən 123 namizəddən 35 nəfər müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Qanunvericiliyə əsasən müsahibənin keçirilməsi üçün Mədəniyyət Nazirliyindən 1, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan 1, müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılıb. Müsahibə zamanı namizədlərin praktik hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyətləri yoxlanılıb. Müsahibə mərhələsində 34 namizəd iştirak edib, 23 nəfər müvafiq keçid balını (12 və ya daha çox) toplayıb. Bu mərhələdə uğur qazanmış şəxslərin sənədləri işə təyin olunmaq üçün Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixli Sərəncamına əsasən hər il sentyabrın 27-si ölkəmizdə “Turizm İşçiləri Günü” peşə bayramı kimi qeyd olunur.*



*27 sentyabr Turizm İşçiləri Günüdür*

# Turizm yeni perspektivlər vəd edir

Turizm dünyanın bir çox ölkələrində ümumdaxili məhsulun formalaşmasında, yeni iş yerlərinin yaradılmasında və əhalinin məşğulluğunun təmin edilməsində, xarici ticarət balansının gücləndirilməsində iqtisadiyyatın əsas sahəsi kimi götürülür. Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən və zəngin təbii resurslara malik olan Azərbaycanda da bu sahənin inkişafı diqqət mərkəzindədir.

Ölkəmizdə turizmin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ötən əsrin 70-ci illərindən başlayaraq ölkə turizminin əsaslı inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Məhz bu illərdə Azərbaycanda turizm təşkilatları və ekskursiya bazalarının geniş şəbəkəsi yaradılmış, müasir mehmanxanalar, ictimai və əyləncə obyektləri inşa olunmuşdur. Ölkəmiz müstəqillik qazandıqdan sonra dövlət turizm siyasətinin tənzimlənməsi sahəsində mühüm hüquqi baza yaradılmış, 1999-cu ildə “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.

***“Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına xidmət göstərir. Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir”,*** – deyən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ümummilli liderimizin siyasi xətti uğurla davam etdirilir. Elə bunun nəticəsidir ki, son illərdə ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ölkə başçısının imzaladığı sərəncamlar, qəbul edilən Dövlət proqramlarının uğurlu icrası Azərbaycanı dünyada turizm ölkəsinə çevirmişdir. Azərbaycanın bütün bölgələrində yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni-tarixi qoruqlar yaradılmışdır. 2011-ci ilin “Turizm ili” elan edilməsi isə respublikamızda bu sahənin inkişafına göstərilən diqqətin daha bir ifadəsi olmuşdur.

Ölkəmizin hər bir guşəsi kimi, onun qədim insan və mədəniyyət məskəni, təbii sərvətlər muzeyi olan, “Şərqin qapısı” adlandırılan Naxçıvan Muxtar Respublikası bu gün turistlərin ən çox sevdiyi məkanlardandır. Əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, zəngin mədəni irsi, təbii müalicə mərkəzləri, mineral suları, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir tərəqqisi muxtar respublikada turizmin inkişafını şərtləndirən başlıca amillərdir. 200-dən çox mineral bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşmışdır. Muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər turizmin bir çox növünün inkişafına şərait yaratmışdır. Ərazidə olan flora və faunanın nadir növləri Naxçıvan Muxtar Respublikasının “Qırmızı kitabı”na daxil edilmiş və xüsusi mühafizəyə alınmışdır. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan vermiş, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmışdır. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınmış, su xətləri çəkilmiş, müasir infrastruktur obyektləri tikilmiş, fasiləsiz təbii qaz, elektrik enerjisi, rabitə xidməti və sürətli internet istifadəyə verilmişdir. Qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi,



Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd yaşıl turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Həmin kəndlərdə asudə vaxtını səmərəli keçirmək istəyən turistlərə həm də bütün zəruri xidmətlər təklif olunur. Həmçinin ailə təsərrüfatları tərəfindən hazırlanan ekoloji cəhətdən təmiz qida məhsulları və münasib qiymətlər turist məmnunluğunu səciyyələndirən amillərdəndir. Bu baxımdan muxtar respublikanın kənd yaşayış məntəqələrinə gələn turistlər həm də onlarla çeşiddə təmiz ekoloji məhsullarla tanış olmaq imkanı əldə edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında” Sərəncamı isə dayanıqlı turizm sektoru formalaşdırmaqla yanaşı, turistlərin bütün xidmətlərin kompleks şəkildə istehlakına zəmin yaratmışdır. Sərəncama əsasən yaradılmaqda olan Ağbulaq Xizək Mərkəzi Naxçıvanda yüksək turizm infrastrukturunun formalaşdırılması istiqamətində görülən işlərə mühüm töhfə verəcək, qış turizminə marağı daha da artıracaq, yeni turizm növlərinin formalaşmasına stimul verəcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 oktyabr tarixli Sərəncamına əsasən yaradılmış Sahil Parkı qısa müddətdə şəhər sakinlərinin və qonaqların ən sevimli istirahət məkanlarından birinə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müasir dünyada turizm sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür”.***

Naxçıvan Muxtar Respublikasının tarix-mədəniyyət abidələri ilə zənginliyi turistləri bu diyara cəlb edən əsas amillərdəndir. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin siyahıya alınması, pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılaraq qeydiyyata alınmış, 70-ə yaxın tarix və mədəniyyət abidəsi bərpa olunmuşdur. Son illər ərzində Möminə xatın türbəsi bərpa edilmiş, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-



Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Nuh Peyğəmbərin məzarüstü türbəsi, muxtar respublika ərazisindəki buzxanalar, Naxçıvan şəhərindəki İmamzadə Kompleksi, “Came” məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Naxçıvanqala, Xan sarayı, Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Qazançı körpüsü, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksi, Babək rayonundakı Nehrəm imamzadəsi və digər tarixi abidələr bərpa olunmuşdur. Cari ildə Yusif Küseyir oğlu türbəsinin, Naxçıvan şəhər buzxanasının və Şahtaxtı kəndindəki Şərq hamamının yenidənqurma və bərpadan sonra istifadəyə verilməsi bu istiqamətdə görülən işlərin davamlı xarakter daşıdığını göstərir. Hazırda Ordubad şəhərində yerləşən “Cümə” məscidinin və Ərəfsə kəndindəki qədim körpünün bərpası davam etdirilir.

Qədim diyarda müalicə turizminin inkişafına da xüsusi diqqət yetirilir. Dünyanın bənzərsiz təbii şəfa mənbəyi olan Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılmışdır. Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Hazırda tikintisi davam edən Darıdağ arsenli su müalicə və istirahət kompleksi, həmçinin ərazidə “Darıdağ” Termal Hotelin tikintisi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən səmərəli şəkildə istifadəyə şərait yaradacaqdır.

Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm marşrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır. Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilmişdir. Bütün bunlar onu göstərir ki, Naxçıvanda dini turizmin inkişafı üçün də real imkanlar mövcuddur.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı müşavirənin keçirilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamına əsasən “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın qəbul olunması bu sahənin inkişafında yeni mərhələnin əsasını




qoymuşdur. Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin yaradılması isə bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. 2019-cu ilin 23 sentyabrından etibarən Turizm Departamenti tarixi binada – Naxçıvanskilərə məxsus malikanədə fəaliyyətini davam etdirir. Departamentin fəaliyyəti üçün müasir standartlara cavab verən maddi-texniki baza yaradılmış, departamentin nəzdində fəaliyyət göstərən Milli Dəyərlər Muzeyinin ekspozisiyası yeni maddi mədəniyyət nümunələri ilə zənginləşdirilmişdir.

Ölkənin zəngin və özünəməxsus mətbəxi turistləri cəlb edən əsas amillərdəndir. Bu baxımdan Naxçıvan mətbəxi hər zövqə uyğun dadlı təamları ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 9 aprel tarixli Sərəncamına əsasən yaradılmış “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi qədim mətbəx nümunələrimizin, eləcə də milli mətbəximizə aid adət-ənənə və folklor nümunələrinin toplanması, qorunması, sistemli şəkildə öyrənilməsi, inkişaf etdirilməsi və təbliği istiqamətində səmərəli fəaliyyətini davam etdirir. Mərkəzin nəzdində olan “Milli Yeməklər” ictimai iaşə Məhdud Məsuliyyətli Cəmiyyətində milli mətbəx nümunələrinin hazırlanma qaydalarına dair televiziya verilişləri və videoçarxlar hazırlanaraq internet resursları vasitəsilə təbliğ olunur. Son illərdə qədim diyarımızın turizm potensialından səmərəli istifadə olunması, mövcud tələblərə cavab verən turizm infrastrukturunun formalaşdırılması sahəsində mühüm uğurlar əldə olunmuş, yeni hotellər və istirahət mərkəzləri istifadəyə verilmiş, tarixi yaddaşı əks etdirən abidələr bərpa edilmiş, muxtar respublika ərazisində təhlükəsiz mühit formalaşdırılmışdır. Hazırda fəaliyyətdə olan 5 ulduz kateqoriyasına malik “Təbriz” və “Duzdağ” hotelləri, “Saat Meydanı” turistik istirahət mərkəzi, Ağbulaq İstirahət Mərkəzi və digər turizm obyektlərində yüksəkkeyfiyyətli xidmət təklif olunur. Sevindirici haldır ki, muxtar respublikamızda qonaq olan turistlərin bir qismi geri qayıtdıqdan sonra sosial şəbəkələrdə, müxtəlif internet saytlarında qədim diyarımızla bağlı xoş təəssüratlarını bölüşürlər. Təsadüfi deyil ki, Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı “Vanderlast” Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil etmişdir. Naxçıvanın mübarizliyinin, əyilməzliyinin simvolu olan Əlincəqala Perudakı Machu Picchu qala şəhəri ilə müqayisə olunur. Bütün bunlar muxtar respublikamızda qısa müddətdə turizm sahəsində qazanılmış böyük uğurların göstəricisidir. Turizmin inkişafına göstərilən qayğı muxtar respublikamıza gələn turistlərin sayının ilbəil artmasına öz müsbət təsirini göstərir. Ötən il muxtar respublikamıza 415 min 932 turist gəlmişdir ki, bu da müstəqillik illərində muxtar respublikamızda qeydə alınan ən yüksək göstəricidir.

Turizm sahəsində kadr hazırlığı mühüm məsələlərdəndir. Hazırda Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərində Turizm və otelçilik ixtisası üzrə kadr hazırlığı aparılır, Ordubad Texniki Peşə və Sürücülük Məktəbində, eləcə də Naxçıvan Şəhər Peşə Liseyində Turizm agenti ixtisası üzrə peşə kursları fəaliyyət göstərir. Tədris ilində tələbələrlə görüşlər keçirilir, onların Naxçıvan Muxtar Respublikasında yerləşən muzeylərə, tarixi abidələrə, müalicə mərkəzlərinə və xüsusi qorunan təbiət ərazilərinə ekskursiyaları təşkil edilir, təcrübələr və maarifləndirici seminarlar keçirilir. Bununla yanaşı, qədim diyarımızın turizm potensialının öyrənilməsi və təbliğində, keçirilən tədbir və festivallarda tələbələrin fəal iştirakını təmin etmək, onları turizm sektoru üçün təcrübəli kadr kimi formalaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən “Turizm könüllüsü” layihəsi həyata keçirilməkdədir.

*Son illərdə muxtar respublikamızda ümumi turizm infrastrukturunun yaradılması, kənd, müalicə, ziyarət, tranzit və digər turizm növlərində əldə edilən nailiyyətlər, həyata keçirilən tədbirlər, yaradılan şərait qədim diyarın turizm potensialının inkişafı üçün bundan sonra da geniş üfüqlər açacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Turizm Departamenti***

*Muxtar respublikamızda uğurlu dövlət siyasətinin prioritet istiqaməti kimi təhsilin, iqtisadiyyatın, kənd təsərrüfatının bütün sahələrində elmi yanaşmaya, mütərəqqi metodların tətbiqinə üstünlük verilir ki, bu da özünü günbəgün artan inkişafda, tərəqqidə göstərir.*

# Mütərəqqi sahəyə elmi cəhətdən yanaşılanda...



Yaradılan şəraitin nəticəsidir ki, keçmişdən günümüzədək nəsildən-nəslə ötürüləərk gəlib çatan, ulu babalarımızın əsas məşğuliyyət sahələrindən sayılan arıçılığı da müasir dövrün elmi, texniki yeniliklərindən kənarda qalmayıb. Belə ki, Naxçıvanda arıçılığın inkişafı ilə bağlı qəbul olunan Dövlət proqramlarına, verilən tapşırıqlara uyğun olaraq ötən müddət ərzində bu sahənin problemləri və inkişaf perspektivlərinə həsr olunan beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfranslar keçirilib, istiqamətverici nəşrlər hazırlanıb, özünü doğrultmuş fəaliyyət planının mənimsənilməsinə, arıçılar arasında təcrübə mübadiləsinin aparılmasına geniş imkanlar yaradılıb. Arıçıların rastlaşdıqları problemləri ümumiləşdirərək onların həllinə nail olmaq məqsədilə yaradılan Arıçılar İctimai Birliyinin son illərdəki səmərəli fəaliyyəti, yerlərdə təsərrüfatçılarla görüşlərin təşkili, keçirilən ənənəvi festivallar sayəsində bu qədim və çox əhəmiyyətli təsərrüfat forması özünün yüksək inkişaf mərhələsinə qədəm qoyub. Eyni zamanda xəstəliklərin müalicəsi üçün hər il arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinə pulsuz dərman preparatlarının verilməsi, istehsal etdikləri məhsulları satmaq üçün hər həftənin şənbə-bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində təşkil olunan yarmarkalarda əlverişli şərait yaradılması bu sahənin kütləviləşməsinə stimul verən mühüm amillərdir.

Ömrünün 20 ildən çoxunu arıçılığa həsr edən, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov dövlətimizin göstərdiyi qayğıdan səmərəli faydalanaraq bu sahədə elmi yeniliklərə imza atmaq əzmi ilə çalışır. 20-dən çox arı ailəsi bəsləyən təsərrüfatçıalim hazırda yerli saf fərdlərin alınması, eləcə də dünyanın bir sıra ölkələrinin, o cümlədən Türkiyə, Almaniya və Ukraynanın "Boz Qafqaz", "Karniyol", "Belfast" adlı məhsuldar arı cinslərini muxtar respublika şəraitinə uyğunlaşdırmaq üçün seleksiya işləri aparır. Deyir ki, istənilən sahədə uğur əldə etmək üçün, ilk növbədə, şəraitin əlverişli olması vacib şərtdir. Məsələyə bu prizmadan yanaşsaq, görərik ki, Naxçıvanın təbii-coğrafi vəziyyəti və iqlimi balverən bitkilərin müxtəlif dövrlərdə çiçəkləməsinə səbəb olur. Bu məqamda bir faktı da qeyd etmək yerinə düşər ki, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun araşdırmalarının nəticələrinə görə, muxtar respublikada 177 fəsiləyə daxil olan 3022-yə qədər ali bitki növü vardır ki, onların da 400-dən çoxu balvermə xüsusiyyətinə malikdir. Beləliklə, mövcud təbii şəraitin fonunda arıçılığın inkişafı üçün münbit yem bazası formalaşır ki, bu da diyarımızda 100 mindən artıq arı ailəsi saxlamağa və bunlardan bol məhsul əldə etməyə imkan verir. Arıçılığın yem bazasının zənginləşməsinə təsir edən amillər sırasında kütləvi hal alan yaşıllaşdırma tədbirləri, yeni salınan parklar, gülkarlıqlarla bəzənən küçələr və yol kənarları, eləcə də tarlaqoruyucu meşə zolaqlarının, əsasən, nektarlı və tozcuqlu bitkilərdən (söyüd, ağ akasiya, iydə, armud, alça, gavalı, müxtəlif yemişan növləri və sair) ibarət olması mühüm rol oynayır. Məhsuldarlığın artırılmasında əsas amillərdən biri də arı ailələrinin planlı surətdə lazımi yerlərə köçürülməsidir. Bu baxımdan köç zamanı da muxtar respublikanın gözəl təbiəti arıların məhsuldar fəaliyyətinə geniş imkanlar açır, digər tərəfdən dövlətimiz də arıçılara bu işlərdə lazımi dəstək göstərir, subsidiyalar verilir, məhsulların satışı üçün yarmarkalar, festivallar təşkil olunur ki, bu amillər də son illərdə qədim təsərrüfat formasına marağı xeyli artırıb.

Elsevər müəllim qeyd edir ki, arıçılığın qədim şöhrətinin bərpası və gələcək inkişafını təmin etmək üçün mövcud imkanlardan səmərəli istifadə edib, ata-babalarımızın zəngin təcrübəsinə üz tutmaqla, müasir dövrün elmi yeniliklərindən də bəhrələnib bu sahədə uğura imza atmaq əsas hədəfimizdir. Məhz bu məqsədlə Naxçıvan Dövlət Universitetində 2000-ci ildən başlayaraq arıçılıq sahəsi üzrə bir sıra elmi-tədqiqat işləri aparılır. Araşdırmaların əsas istiqamətləri arıyetişdirmə, arı xəstəlikləri, arıların bioloji davranış xüsusiyyətləri və arıçılıq məhsullarına həsr olunub. Ölkə və muxtar respublika şəraitində arıçılıq məhsulları, bal, vərəmum və çiçək tozu üzrə elmi tədqiqatların müəyyən bir hissəsini Türkiyənin Kayseri Erciyes və Trabzon Qaradəniz Teknik universitetlərinin elm adamları ilə birlikdə tədqiq etmişik. Bununla bağlı bir sıra beynəlxalq jurnallarda, elmi nəşrlərdə məqalələr də geniş yer alıb. Həmçinin elmi-tədqiqatların nəticəsi olaraq ötən illərdə "Azərbaycan təbii balının keyfiyyət göstəriciləri və dövlət standartları", "Naxçıvanda arıçılıq: ənənələri və perspektivləri", "Bal arısının xəstəlikləri və zərərvericiləri", "Azərbaycanda bal arısının (Apis mellifera L.) bioekoloji xüsusiyyətləri, arı vərəmumunun toplanması və fiziki-biokimyəvi xassələri" "Naxçıvan Muxtar Respublikasında arı ailələrindən keyfiyyətli vərəmumun istehsalının yeni texnoloji üsulu" kitabları işıq üzü görüb. Cari ildə isə "Vərəmum – min bir dərdin dərmanı" elmi vəsait nəşrə hazırlanır.

Söhbət zamanı onu da öyrənirəm ki, arıçılıq sahəsində aparılan elmi-tədqiqat, seleksiya işlərinə tələbələr də cəlb olunur. Bu məqsədlə universitetin Baytarlıq təbabəti kafedrasında arıçılıq problemləri laboratoriyası yaradılıb, 2017-ci ildə buraya Türkiyənin "Civan" arıçılıq şirkətindən çiçək tozu yığmaq üçün tələbləri olan xüsusi pətəklər, balsüzən, muməridən maşınlar, arı südü istehsalı şəbəkəsi, müxtəlif çərçivə tipləri və digər avadanlıqlar alınıb gətirilib. Universitetdə aparılan polenoloji analizlər əsasında müəyyənləşdirilib ki, bütün ballar multifloral olub, fərqli bitki qaynaqlarından əldə edilir və hər hansı bitki qrupunun üstünlüyü bu ballarda yoxdur. Eyni zamanda bitki mənbələrinə görə aparılan tədqiqatlar nəticəsində Azərbaycan ballarının əsas mənbəyini paxlalılar fəsiləsinə aid bitkilərin təşkil etdiyi müəyyənləşdirilib. Bal nümunələrinin antioksidant fəallığına görə isə yerli şəraitdə istehsal olunan balların yüksək dəyərə malik olduğu təsbit edilib. Həmçinin aparılan biokimyəvi analizlərdə Ordubad və Culfa ballarının çox yüksək prolin göstəricisinə malik olduğu ortaya çıxıb. Bu sahənin tədqiqatçılarına məlumdur ki, balların ən güclü antioksidant xüsusiyyəti onların tərkibindəki fenol birləşmələri ilə əlaqədardır. Bu baxımdan tədqiq olunan bal nümunələri içərisində Culfa balının tərkibində 10, Şahbuz və Şərur balların da isə 9 növ fenol birləşməsi aşkarlanıb, p-hidroksibenzoy turşusunun Ordubad və Şərur ballarının əsas fenollu birləşməsi olduğu müəyyən edilib. Prolin miqdarına əsasən Ordubad və Culfa, balın əsas antimikrob xüsusiyyətini təmin edən kafein turşusuna görə isə Culfa və Şahbuz ballarının üstün olduğu ortaya çıxıb. Tədqiq olunan bütün nümunələr içərisində fruktozanın miqdarının qlükozadan artıq olması və saxarozanın bəzi ballarda çox az rast gəlinməsi yerli şəraitdə istehsal edilən balların dəyərinin yüksəkliyi haqqında fikir yürütməyə imkan verir.



Universitetdə yaradılan şəraitlə tanışlıq zamanı o da məlum oldu ki, ali təhsil ocağının Tibb, Baytarlıq təbabəti və Biologiya ixtisaslarında təhsil alan tələbələr buradakı ayrı-ayrı laboratoriyalarda praktik dərslər keçir, eyni zamanda ixtisaslı mütəxəssislər elmi-tədqiqat işləri aparırlar. Həmçinin universitetin Tibb fakültəsinin laboratoriyalarında arıçılıq məhsullarının keyfiyyət göstəriciləri, xassə və xüsusiyyətlərinin araşdırılması ilə yanaşı, müalicə və profilaktika məqsədilə istehsalı da həyata keçirilir. İlk olaraq vərəmumun bir neçə adda: 70 faizli etil spirtində 10, 15 və 20 faizli ekstraktları, zeytun yağında 10 faizli ekstraktı hazırlanıb, eyni zamanda çiçək tozcuğunun (polen) tədarükü, qurudulması və qablaşdırılması həyata keçirilib. Bununla yanaşı, hazırda laboratoriyalarda vərəmumun bir sıra xəstəliklərdə istifadəsi tövsiyə olunan sulu, yağlı, ballı qarışıqları, mazları, məlhəmləri, şamları, mum güvəsi cövhəri və digər bu kimi məhsulların hazırlanması üçün işlər davam etdirilir.

Növbəti "Arıçılıq məhsulları – bal festivalı"nın keçiriləcəyi xəbəri bu sahənin mütəxəssisi kimi Elsevər müəllimin də hədsiz sevincinə səbəb olub, o elmi-tədqiqat işləri nəticəsində əldə olunan arıçılıq məhsullarını festivala çıxarmağa hazırlaşır. Deyir ki, hər il ənənəvi olaraq keçirilən festivalda iştirak edən Ali Məclis Sədrinin arıçılıqla bağlı işıq üzü görən elmi nəşrlərlə, ədəbiyyatlarla yaxından maraqlanması, elmi-tədqiqat işlərinin vacibliyini vurğulayaraq verdiyi tapşırıq və tövsiyələrdən işimizə göstərilən böyük qayğı, dəyər kimi stimul alırıq. Naxçıvan Muxtar Respublikasının zəngin flora və faunasının tədqiqi, müxtəlif bioloji ehtiyatların səmərəli istifadəsi nəticəsində müalicəvi-profilaktik preparatların hazırlanması, əldə olunan nəticələrin tanıdılması istiqamətində fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyini bildirən Elsevər müəllimə bu işlərdə yeni nailiyyətlər arzulayır, "Arıçılıq məhsulları – bal festivalı"nda görüşmək ümidi ilə sağollaşıram.

*Böyük Çin filosofu Konfutsi deyirdi ki, heç kim müvəffəqiyyət nərdivanını əlləri cibində çıxmayıb. Bütün sahələrdə uğur qazanmanın yolu məhz çəkilən zəhmətdən, fədakar əməkdən və bir də ən vacibi elmi yanaşmadan, mütərəqqi yeniliklərdən lazımınca istifadədən keçir. Əgər bu prinsipləri əldə rəhbər tutub işə başladınsa, nailiyyət özü tez bir zamanda səni tapacaq. Elə ömrünü arıçılıq sahəsində aparılan mühüm elmi-tədqiqat işlərinə həsr edən Elsevər Əsədov kimi...*

**Nail ƏSGƏROV**

## Naxçıvan teatrı 138-ci mövsümünə başlayıb



***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı sentyabrın 25-də görkəmli dramaturq Cəfər Cabbarlının "Aydın" dramı əsasında hazırlanmış eyniadlı tamaşa ilə 138-ci teatr mövsümünü açıb.***

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova tədbirdə çıxış edərək bildirib ki, 1883-cü il mayın 11-də əsası qoyulan və bu gün 138-ci mövsümünə başlayan Naxçıvan teatrı həmişə Azərbaycan teatr hərəkatının önündə gedərək tamaşaçıların mənəvi və estetik tərbiyəsində mühüm rol oynayıb, bəşəri və milli məsələləri səhnəyə gətirməklə daim tamaşaçı sevgisi qazanıb.

Vurğulanıb ki, Naxçıvan teatrı milli dramaturgiyamızın klassik nümunələrinə geniş meydan verməklə, milli şüurun formalaşmasına, Azərbaycançılıq ideyasının yayılmasına qayğı ilə yanaşıb, ölkədə milli mənafeyə xidmət işinə dəyərli töhfələr verib. Bütün bu uğurlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu prinsipial, sağlam mənəviyyatlı siyasi kursun bəhrələridir.

Nazir bildirib ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində daim ardıcıl tədbirlər həyata keçirilir, teatr sənətinə bağlı insanların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Diqqətə çatdırılıb ki, ötən teatr mövsümündə "Ehsan xan Kəngərli", "Ölülər" və dəlilər", "Teleskop" və "Burla Xatun" kimi maraqlı, eyni zamanda ideya-bədii cəhətdən müxtəlifliyi ilə seçilən əsərlər səhnələşdirilib. Həmçinin Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı aprel ayından etibarən mövcud vəziyyətlə əlaqədar olaraq həmin tamaşaları, "Aydın" pyesi əsasında hazırlanmış eyniadlı tamaşadan bir hissəni onlayn formada təqdim edib, "Ağıldan bəla" əsəri əsasında hazırlanmış tamaşanın isə onlayn premyerasını keçirib.

Mədəniyyət naziri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının kollektivini və teatrsevərləri 138-ci teatr mövsümünün açılışı münasibətilə təbrik edib, teatr kollektivinə yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra "Aydın" tamaşası göstərilib. Tamaşanın quruluşçu rejissoru və səhnə tərtibatçısı gənc rejissor Həcərxanım Məmmədova, rejissoru və səhnə tərtibatçısı Səyyad Məmmədovdur. Tamaşada professional aktyor heyəti təmsil olunur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Tibb fakültəsi daha bir yeniliyə imza atıb



***Naxçıvan Dövlət Universitetində Əczaçılıq və simulyasiya kabinəsinin açılışı olub.***

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev yeni kabinənin açılışının Əczaçılıq ixtisası üzrə təhsil alan tələbələrin təcrübi peşə bacarıqlarının formalaşması üçün yaradılan şəraitin növbəti təzahürü kimi dəyərləndirib. Qeyd edilib ki, kabinənin tələbələrin yüksəkixtisaslı əczaçı kimi yetişməsində əvəzsiz rolu olacaq, onlar burada aptek təcrübəsini mənimsəyəcək, gələcəkdə xəstəxanalarda, laboratoriyalarda, əczaxanalarda işləmələri qazandıqları təcrübəyə əsaslanacaq.

Əczaçılıq və biokimya kafedrasının müəllimi Zəminə İsmayılova bildirib ki, Naxçıvanda əczaçı kadrlara olan tələbatı nəzərə alaraq universitetin Tibb fakültəsində ilk dəfə 2012-ci ildə Əczaçılıq ixtisasına tələbə qəbulu həyata keçirilib. Artıq 5 ildir ki, bu ixtisas üzrə məzunlar muxtar respublikanın xəstəxanalarında, əczaxanalarında, dərman şirkətlərində öz ixtisasları üzrə fəaliyyət göstərirlər. Diqqətə çatdırılıb ki, əczaxananı xatırladan kabinədə dərmanlar farmakoloji qruplarına uyğun olaraq yerləşdirilib. Buradan təkcə əczaçı tələbələr deyil, eyni zamanda digər tibb ixtisasının tələbələri də istifadə edə bilərlər.

Əczaçılıq texnologiyası ixtisası üzrə II kurs magistrant Solmaz Novruzova, Əczaçılıq ixtisası üzrə IV kurs tələbəsi Tünzalə Quliyeva yaradılan şərait üçün minnətdarlıqlarını ifadə ediblər. Vurğulanıb ki, yaradılan şəraitdən maksimum istifadə olunacaq, gələcəkdə peşəkar kadr kimi muxtar respublikaya öz layiqli töhfələrini verəcəklər.

Sonra kabinəyə baxış olub.

**Səadət ƏLİYEVA**

## Elmi-praktik seminar keçirilib



*AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda "2020-ci ildə Əlyazmalar Fonduna daxil olan yeni əlyazma və çap kitablarının qeydiyyatına dair" mövzusunda elmi-praktik seminar keçirilib.*

Tədbiri fondun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov açaraq bu elmi quruma cari ildə 60 qədim əlyazma və çap kitabının daxil olması haqqında məlumat verib. O bildirib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən hədiyyə edilən əlyazma və çap kitablarının içərisində dəyərli nümunələr vardır.

Diqqətə çatdırılıb ki, "Ənvariüşşühəda", "Zinətül-məcalis", "Əhsənul-qisəs", "Qurban bayramı", "Kitabi-əl bəyan", "Coğrafiya", "Dünyanı sarsıdan on gün", "Nəbatat" adlı əlyazma və çap kitabları bu qəbildəndir. Həmin əlyazma və çap kitabları üzərində gələcəkdə araşdırmaların aparılması nəzərdə tutulub.

Daha sonra fondun şöbə müdirləri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbuhi İbrahimov, Fəxrəddin Eylazov və elmi işçi Kübra Vəliyeva çıxış edərək yeni əlyazma və çap kitablarının qeydə alınması, onlara gigiyenik xidmət göstərilməsi, naqis kitabların bərpa olunması, ilkin elmi rəylərin yazılması, kataloqlaşdırılması ilə bağlı ətraflı məlumat veriblər.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Bal ətirli zəhmətin bəhrəsi ilə ənənəvi festivala hazırlıq

***Dünyada xəstəliklərin tüğyan etdiyi, iqtisadi geriləmələrin, tənəzzülün müşahidə olunduğu 2020-ci il də muxtar respublikamız üçün uğurlu, nikbin notlarla davam edir, ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasi xəttə sadiqliyin, aparılan məqsədyönlü, uzaqgörən siyasətin nəticəsidir ki, bütün sahələrdə dinamik inkişaf prosesləri nəzərə çarpır. İstər şəhər, istərsə də kənd yaşayış məntəqələrində yaşayan, firavan həyat naminə çalışan zəhmətkeş insanlar üçün açılan sabah, doğan günəş özü ilə bərəkət, bolluq gətirir. Artıq bu gün qədim, möhtəşəm görünüşlü Naxçıvanqalanın hər qarışı yenə əməksevər naxçıvanlıların alın tərinin bəhrələri, bir-birindən dadlı-tamlı, mənbəyi səfalı guşələrimizin gülü-çiçəyi, şəfalı otları olan arıçılıq məhsulları ilə bəzənəcək. Biz – “Şərq qapısı” qəzetinin əməkdaşları ənənəmizə uyğun olaraq bu dəfə də arıçılığın inkişafı, öz nümunəvi fəaliyyəti ilə seçilən təsərrüfat adamları barədə oxucularımıza festival öncəsi məlumat verməyə çalışdıq...***

Ulu babalarımızdan miras qalmış arıçılığın muxtar respublikamızda inkişafını xarakterizə etdikdə, xüsusilə Ali Məclis Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlər diqqəti çəkir. Belə ki, Dövlət proqramının qəbulundan ötən dövr ərzində bu sahə ilə məşğul olan təsərrüfatlara maddi dəstək, eləcə də subsidiyaların verilməsi, Arıçılar İctimai Birliyinin fəaliyyətinin düzgün qurulması, mövcud arı cinslərinin qorunub saxlanılması ilə bərabər, ana arıların yetişdirilməsi üçün arıçılara lazımi köməklik göstərilməsi, bu mütərəqqi sahəyə elmi cəhətdən yanaşılması, istiqamətverici nəşrlərin hazırlanması arıçılığa marağı xeyli artırıb. Bütün bunlarla yanaşı, istehsal olunan arıçılıq məhsullarının qablaşdırılması, tanıdılması üçün münbit şəraitin yaradılması, Naxçıvan şəhərində ənənəvi yarmarka və festivalların



keçirilməsi də təsərrüfatçıların fəaliyyətini stimullaşdırmaqla müsbət irəliləyişlərə yol açıb. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikamızda 4 mindən artıq təsərrüfatda 100 minə yaxın arı ailəsi bəslənilir. Onlardan 289 arıçı bu gündən etibarən 2 gün ərzində keçiriləcək növbəti “Arıçılıq məhsulları – bal festivalı”na istehsal etdikləri 14 min 115 kiloqram süzmə, 2238 kiloqram isə şan balı, bir-birindən faydalı digər arıçılıq məhsullarını çıxaracaqlar. Həmin təsərrüfatçılardan bir neçəsi ilə əlaqə yaradıb arıçılıqda qazandıqları uğurlar barədə söhbət etdik.

“Arı ailələrinin işi özünəxas qanunlar əsasında qurulub. Bu baxımdan arıçılığı çox çətin və sirli bir peşə də adlandırmaq yanlış olmaz. İllər ərzində bu sahədə müəyyən təcrübə toplasam da, bilmədiklərim hələ də çoxdur. Arıların həyat tərzini öyrəndikcə onlardan çox təəccüblü, maraqlı məlumatlar toplayıram”, – deyən ilk həmsöhbətimiz Sədərək kənd sakini ***Abdulla Sadiqov***dur. Təcrübəli arıçı deyir ki,



yer üzündə olan canlıların ən işgüzarı və ağıllısı, Tanrının yaratdığı möcüzələrdən biri olan arıların insanlara bəxş etdiyi bal ən dəyərli nemətdir. Ondan on səkkiz dəfə güclü olan arı südü və on iki dəfə güclü olan çiçək



tozu isə ən ağır xəstəliklərin dərmanıdır. Müqəddəs kitabımız “Qurani Kərim”də adıçəkilən arı Allah tərəfindən insanlara göndərilmiş ən böyük loğmandır. Xalq arasında bal qida məhsulu kimi hər zaman yüksək qiymətləndirilib. El arasında bal arılarını zəhmətsevərliyin, qeyrətliliyin rəmzi də adlandırırlar. Çox işləyən, çalışan adam haqqında deyirlər: “O, bir an dayanmır, arı kimi işləyir”. Fərsiz, gərəksiz adam haqqında isə əksinə olaraq: “Biəməl alim balsız arıya bənzəyir”, tutarlı, məntiqli, şirindilli adam haqqında isə, adətən, “Ağzından bal süzülür” söyləyərlər.

Təsərrüfatçı qeyd edir ki, arının verdiyi məhsullar arı südündən, zəhərindən, propolisdən, çiçək tozundan, mumdan, baldan və güləmdən ibarətdir. Balın dadı başlıca olaraq arının hansı çiçəkdən şirə çəkməsindən asılıdır. Qocaman, təcrübəli arıçılar şirəni baldan seçməyi bacarırlar. Əsl arıçı barmağını bala batırıb, onun ətrindən arının hansı çiçəkdən şirə çəkməsini müəyyən edə bilir. Bu mənada, təmiz balın özünəməxsus ətri və dadı olur. Xalq təcrübəsi sübut edib ki, balın xarlanması onun təbii olduğunu göstərən əlamətlərdən biridir. Süni şəkildə saxtalaşdırılmış bal duru olur, xarlanmır. Balın yetişmə müddəti (şan möhürlənənədək) 16-23 gün davam edir.

Abdulla Sadiqov onu da deyir ki, hər il muxtar respublikada keçirilən “Arıçılıq məhsulları – bal festivalı”nda fəal iştirak edir, hasilə gətirdiyi bal dad-tamına, görünüşünə və başqa keyfiyyət göstəricilərinə görə həmişə yüksək qiymətləndirilir. Belə ki, 45 ildir, arıçılıqla məşğul olan Abdulla baba ötənilki festivalda III yerə layiq görülüb. Arı südü istehsalı ilə də məşğul olan arıçının fikrincə, bu məhsuldan istifadə etməklə bir çox xəstəliklərə sinə gərə bilərik.

Muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da arıçılığın inkişafına xüsusi diqqət yetirilir. Hazırda bölgədə 13 min 750 arı ailəsi vardır. Ötən il rayonda 272 ton bal istehsal olunub, arıçılığın inkişafı məqsədilə 33 sahibkara 92 min manat kredit verilib. Rayonun bir sıra kəndlərində bu gün keyfiyyətli bal əldə edilir.

Dağlar əhatəsində yerləşən Gal kəndində də arıçılığın inkişafı üçün çox əlverişli, münbit şərait var. Buranın təmiz dağ havası, güllü-çiçəkli yerləri, eyni zamanda ata-babadan qalma ənənələrin uğurla davam etdirilməsi öz bəhrəsini verir. Təqdirəlayiq haldır ki, bu gün muxtar respublikamızda arıçılıq sahəsinin inkişafında qadınlar da yaxından iştirak edirlər. Onlardan biri də Gal kənd sakini ***Gülayə Əliyeva***dır. O deyir ki, 1971-ci ildən arıçılıqla məşğul olur. İllər uzunu qazandığı təcrübə səmərə verir. Təcrübəli arıçı çəkdiyi zəhmətin müqabilində yaxşı qazanc əldə etdiyini söyləyir. Naxçıvan şəhərində hər il keçirilən “Arıçılıq məhsulları – bal festivalı”nda iştirak edərək əldə etdiyi keyfiyyətli məhsulları satmaqla xeyli gəlir sahibi olur. Gülayə xanım deyir ki, atam anamla köməkli arı saxlayardı. Mən də elə bu peşəni anamdan öyrənmişəm. Hazırda 40 arı ailəsinə qulluq göstəririk. İstilər düşən kimi arıları mərhələ-mərhələ yaylağa aparırıq. Gal arıçılıq üçün çox əlverişli ərazidir. Gələcəkdə yeni cins arı sortları da əldə etmək fikrindəyik. Məqsədimiz bu vacib sahəni daha da genişləndirməkdir. Düşünürəm ki, arıçılıq ailənin xoş güzəranı üçün ən sərfəli bir sahədir.





Həmsöhbətimiz onu da deyir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşları da tez-tez bu yerlərdə olur, arıçılıqla məşğul olan sahibkarları maarifləndirirlər. Beləliklə də hər bir arıçı dövlət qayğısından lazımınca bəhrələnərək təsərrüfatını genişləndirməyə müvəffəq olur.

Babək rayonunun Qahab kəndində bu mütərəqqi sahə ilə məşğul olan ailə təsərrüfatı başçısı ***Əlövsət Rzayev*** deyir ki, əlverişli



iqlimə, zəngin bitki örtüyünə malik muxtar respublikamızda iqtisadi cəhətdən gəlirli olan bu sahənin inkişafını hər bir rayonun, kəndin timsalında müşahidə edirik. Babəkdə də arıçılıqla məşğul olan ailə təsərrüfatçılarının sayı kifayət qədərdir. Mənim 58 yaşım var, 1973-cü ildən dədə-babadan qalan peşənin yolçusuyam. Deyim ki, kəndimizdə ilk dəfə arıçılığı yayan, bir çox insanları da bu peşəyə cəlb edən atam olub. Bu gün məndən başqa dörd qardaşım da arıçılıqla məşğuldur. Hazırda təsərrüfatımızda 30-dan çox arı ailəsinə qulluq edirik. Yaz-yay aylarında arı ailələrini Culfanın, Şahbuzun yaylaqlarına aparırıq. Arı ailələrinə vaxtlı-vaxtında göstərdiyimiz düzgün qulluq, eləcə də bu yerlərin təbiətinin gözəlliyi əldə etdiyimiz məhsulun da keyfiyyətli olmasının əsas səbəbidir. Təbiətin möcüzəsi hesab etdiyimiz arı bir çox məhsullar istehsal edir ki, onlar sağlamlığımızın qorunmasında ən yaxşı vasitələrdir. Bal və vərəmum əldə etdiyim belə məhsullardandır.

Ötən il Naxçıvan şəhərində təşkil edilən “Arıçılıq məhsulları – bal festivalı”nda da iştirak edən müsahibim deyir ki, dövlətimizin dəstəyi bu sahəni inkişaf etdirməkdə, genişləndirməkdə böyük rol oynayır. Mənim kimi digər arıçılar da arı xəstəliklərinə qarşı müxtəlif dərman preparatları ilə pulsuz təmin olunur, bizə hər arı ailəsinə görə subsidiya ödənilir, istehsal etdiyimiz məhsulları əlverişli qiymətə sata bilirik. Mən bundan sonra da arı ailələrimin sayını artırmağa, istehsal etdiyim arıçılıq məhsullarının həcmini genişləndirməyə çalışacağam.

Ordubadın Kotam kəndində yaşayan istənilən şəxsdən soruşsan ki, yaxşı balı kimdən ala bilərik? Hamı onun adını çəkər: kənd sakini, ailə təsərrüfatçısı ***Nazim Həsənov***un. O hər il olduğu kimi, bu il də “Arıçılıq məhsulları – bal festivalı”nda iştirak edəcək. 30 ildir, arıçılıqla məşğul olan zəhmətkeşin 60 arı ailəsi var. Festival təcrübəsi böyük olan müsahibimin dediklərindən: – Balımızın keyfiyyətini, özünəməxsusluğunu görənlər ikinci dəfə də bu məhsulu arzulayırlar.



Nazim dayının sözlərinə görə, dövlətimizin diqqət və qayğısının əhatəsində, bütün təsərrüfatçılar kimi, ona da ayrılan subsidiyalar sayəsində təsərrüfatını genişləndirib. Baldan müxtəlif çeşidli məhsullar hazırlayır. Həmin məhsulların keyfiyyətinə gəldikdə isə təbabətdə faydalı tərəfləri vurğulanır. Festivala ballı doşab, bal sirkəsi, ballı sucuq kimi keyfiyyətli məhsullar çıxaracaq. Sağlamlıq baxımından faydalı olan bu çeşidlər gözəl ətri ilə də seçilir.

Festivala çıxaracağı bal məhsullarının ümumi çəkisinin 30 kiloya yaxın olacağını bildirən müsahibim ümid edir ki, qarşıdakı illərdə də təsərrüfat məhsulları çəkisi və çeşid müxtəlifliyi ilə alıcıların zövqünü oxşayacaq və ağız dadına xoş gələcək.

*Ulu babalarımızın belə bir deyimi var ki, zəhmət çəkən bal yeyər. Bu gün qədim diyarımızın hər bir bölgəsində dövlətimizin yaratdığı gözəl şəraitdə, firavanlıq içində yaşayan əməksevər insanlar məhz bu prinsiplə əkib-becərir, təsərrüfat yaradaraq həm öz gələcəklərinə, həm də yurdumuzun inkişafına töhfə verməyə çalışırlar. Əminik ki, arıçıların fədakar əməyinə verilən növbəti qiymətin ifadəsi olaraq bu gün və sabah keçiriləcək növbəti “Arıçılıq məhsulları – bal festivalı” özünəməxsusluğu ilə bu dəfə də yaddaşlarda dərin təəssürat buraxacaq...*

**✍ Nail ƏSGƏROV**
**✍ Gülcamal TAHİROVA**
**✍ Güntac ŞAHMƏMMƏDLİ**
**✍ Türkan HÜSEYNLİ**
**✍ Telli MƏMMƏDOVA**

# Maarifləndirmə tədbirləri davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri”nə dair növbəti maarifləndirici tədbir keçirilib.*



Xidmətin əməkdaşı Kənan Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikamıza gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi, müvəqqəti və daimi yaşamaq, həmçinin haqqödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi, onların olduğu yer və yaşayış yeri üzrə qeydiyyatı, müvəqqətiolma müddətinin uzadılması, vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi, eləcə də qanunsuz miqrasiyaya qarşı mübarizə məsələləri daim diqqət mərkəzində saxlanılır.

Tədbirdəki çıxış, təqdim edilən slayd və videoçarxlar əcnəbilər üçün ingilis dilində də səsləndirilib. Tədbir iştirakçılarına Dövlət Miqrasiya Xidməti tərəfindən hazırlanan maarifləndirici bukletlər paylanılıb ki, bu da birbaşa onların maariflənməsinə, hüquq və vəzifələri ilə bağlı məlumatlı olmalarına xidmət edir. Qarşılıqlı diskussiya şəraitində keçən tədbirdə əcnəbiləri maraqlandıran suallar cavablandırılaraq mövzu ilə bağlı ətraflı məlumat verilib.

Sonda tədbir iştirakçılarının “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gəzintisi təşkil olunub. Naxçıvan Muxtar Respublikasındakı abidələr arasında özünəməxsus yeri olan muzey kompleksi ilə tanışlıq tədbir iştirakçılarında xoş təəssüratlar yaradıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Yarış keçirilib

Əlahiddə Ümumqoşun Orduda “Ən yaxşı ştatdankənar kimya manqası” adı uğrunda yarış keçirilib. Yarış ştatdankənar kimya manqalarının şəxsi heyətinin taktiki-xüsusi və kütləvi qırğın silahlarından qorunma hazırlığı üzrə nəzəri biliklərinin və praktik bacarıqlarının yoxlanılması məqsədilə təşkil olunub.



Bu adı qazanmaq üçün yarışa cəlb edilən ştatdankənar kimya manqalarının şəxsi heyətinə təhlükəsizlik qaydaları izah olunub.

Dünyanın qabaqcıl istehsalçılarının və ölkəmizin milli müdafiə sənayesinin istehsalı olan yüngül mühafizə vasitələri nümayiş etdirilib.

Yarışda kütləvi qırğın silahlarından mühafizə üzrə normativlər yerinə yetirilib və nəzəri biliklərdən məqbullar götürülüb. Sonda qaliblər mükafatlandırılıb.

**Nəriman NƏCƏFOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 722